# F.Köçərli adına Respublika Uşaq Kitabxanası

Müstəqil Azərbaycan dövləti də yarandığı ilk vaxtlardan mədəniyyətə xüsusi diqqət yetirmiş, milli-mənəvi dəyərlərimizin qorunması, inkişaf etdirilməsi, təbliği və gələcək nəsillərə çatdırılması məqsədilə əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanda mədəniyyət siyasəti yeni dövrə qədəm qoydu. Heydər Əliyev deyirdi: "Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz".

Qeyd etmək lazımdır ki, Azərbaycanda informasiya və biliklər cəmiyyətinin qorunmasında, kitabxanaların üzərinə mühüm vəzifələr düşür. Kitabxanalar əhalinin bütün təbəqələrinə ödənişsiz informasiya xidməti göstərən sosial institutdur. Məhz kitabxana vasitəsilə cəmiyyətin intellektual potensialının formalaşması və inkişafı kimi funksiyalar yerinə yetirilir. Bu baxımdan F.Köçərli adına Respublika Uşaq Kitabxanasının kollektivi respublikamızın son illərdə qazandığı iqtisadiyyat, elm, mədəniyyət və beynəlxalq sahədəki uğurları ilə fəxr edir. Bu uğurların qazanılmasını təmin edən, ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin daxili və xarici siyasətini dəstəkləyir və kitabxana işi sahəsində növbəti 2014-2020-ci illər Dövlət Proqramının uğurla həyata keçirilməsində yaxından iştirak edir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru, təcrübəli mütəxəssis Şəhla Qənbərova ilə söhbət edərkən o, bildirdi ki, bu kitabxana son illər öz intibah dövrünü yaşayır. Kitabxana, doğrudan da, respublikamızda fəaliyyət göstərən uşaq kitabxanaları üçün layiqli metodiki mərkəz rolunu oynayır. Kitabxana bu gün, informasiya əsri adlandırılan XXI əsrdə əsas məlumat mərkəzidir.

Şəhla xanım onu da qeyd etdi ki, kitabxanamız Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" (20 aprel 2007) və "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" (20 aprel 2008) sərəncamlarının həyata keçirilməsi və kitabxana quruculuğunun təkmilləşdirilməsi üçün əlindən gələni edir.

50 yaşlı respublika uşaq kitabxanası üzərinə düşən vəzifələrin öhdəsindən gəlmək üçün indi bütün real imkanlardan bacarıqla istifadə edir. Respublika uşaq kitabxanası öz fəaliyyətində ulu öndərimizin "Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır" devizini əldə rəhbər tutaraq fəaliyyət göstərir.

Respublika uşaq kitabxanasının tarixi və inkişafı barədə söhbət açan Şəhla xanım qeyd etdi ki, bu kitabxana qədim tarixə malikdir. Belə ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanası 1965-ci il yanvarın 1-də Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə M.Qorki adına kitabxana fondunun bazası əsasında yaradılmışdır.

12 sentyabr 1967-ci ildən Azərbaycan Respublikası Mərkəzi Komitəsinin 25 saylı (22) sərəncamına əsasən uşaq ədəbiyyatının inkişafında mühüm xidmətləri olan, Azərbaycan ədəbi dilinin saflığı uğrunda daim mübarizə aparmış Azərbaycan ədəbiyyatşünası, pedaqoqu, maarifpərvər, uşaq folklor antologiyasının banisi Firudin bəy Köçərlinin adını daşıyır. 1965-ci ildə respublika uşaq kitabxanasının yaradılması nəticəsində uşaqlara kitabxana xidmətinin ümumrespublika metodik mərkəzi meydana gəldi. Bununla da uşaqlara xidmət edən digər kitabxanalara, o cümlədən 3 mindən çox məktəb kitabxanasına metodik rəhbərlik təmin edildi. Onu da qeyd etmək lazımdır ki, respublika uşaq kitabxanası son zamanlar plana uyğun olaraq nəinki respublika, eyni zamanda beynəlxalq əhəmiyyətli tədbirlərə də imza atmışdır.

Məsələn, kitabxana Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi ilə, respublika Təhsil Nazirliyi və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeçiliyində olan Uşaq və Gənclər Yaradıcılıq mərkəzləri arasında Beynəlxalq Biomüxtəliflik gününə həsr olunmuş "Dünyanın mədəniyyət rəngləri" adlı yarışma keçirildi. Yarışmada Böyük Britaniya, Türkiyə, Hindistan, Rusiya, Gürcüstan, Tatarıstan, İran, Yunanıstan, Hollandiya, İtaliya, İspaniya dövlətlərinin nümayəndələri təmsil olunmuşdur.

Fərəhlə qeyd etmək lazımdır ki, beynəlxalq tədbirdə məqsəd uşaqları dünya xalqları mədəniyyəti, adət və ənənəsi, ədəbiyyatı, musiqisi ilə tanış etmək, dostluq əlaqələrini möhkəmləndirmək, onlarda tolerantlıq hisslərini aşılamaqla istedadlı uşaqları üzə çıxarmaq, sağlam gələcəyimiz naminə ekologiyamızı qorumaqla uşaqları maarifləndirmək idi.

Bundan başqa, F.Köçərli adına Respublika Uşaq Kitabxanası xarici dövlətlərin uşaq kitabxanaları ilə əlaqə də saxlayır.

Onu da qeyd etmək lazımdır ki, 2012-ci ildən bu kitabxana Beynəlxalq Uşaq Kitab Şurasının (İBBÜ) üzvüdür.

Ümumiyyətlə, F.Köçərli adına Respublika Uşaq Kitabxanası bir



çox beynəlxalq təşkilatların üzvüdür və əhəmiyyətli tədbirlərdə də yaxından iştirak edir.

Məsələn, 22 may Ümumdünya Biomüxtəliflik günü yuxarı sinif şagirdlərinin "Azərbaycan-2020: gələcəyə baxış", kitabxananın təsis etdiyi "Göyqurşağı" uşaq jurnalının təbliği, "20 Yanvar —Qanla yazılmış tarix", "Qalx, qalx, ulu torpaq", "Ağla, qərənfil, ağla", 21 fevral Beynəlxalq Ana dili gününə həsr olunmuş "Ana milli varlığımızın aynasıdır" və sair tədbirlər bu qəbildəndir.

Qeyd etmək lazımdır ki, bir respublika kitabxanası kimi respublikamızın rayon, şəhər, qəsəbə kitabxanalarına əməli-metodiki köməkliklər də göstərir. Belə ki, Kürdəmir, Zərdab, Cəlilabad, İmişli, Masallı, Lənkəran, Ağcabədi, Bərdə, Biləsuvar, Neftçala, Qobustan və sair rayonların uşaq kitabxanalarına əməli-metodiki köməkliklər göstərilməsi buna əyani sübutdur.

Ümumiyyətlə, F.Köçərli adına Respublika Uşaq Kitabxanası uşaqların hərtərəfli formalaşmasında böyük rol oynayır.

**Zabit CAVADOV,**
**"Respublika".**